# Ədalətin Vətən sevgisi

**Azərbaycanın yeni, şanlı tarixinə yazılan 44 günlük haqq savaşımızda polad sinəsini Vətənə sipər edib şəhadətə qovuşan Ədalət Sədaqət oğlu Hüseynli Cəlilabad rayonu, Fərəcullalı kəndindəndir. Sağlığında təkcə kənd camaatı tərəfindən sevilən gəncin adı çəkiləndə indi bütün Azərbaycan xalqı qürur hissi duyur.**

Ədalətin bu işıqlı dünyaya gəlib getməsi cəmi 28 il çəkdi. Amma Vətənin yaşaması, xanlın xoşbəxt gələcəyi naminə göstərdiyi qəhrəmanlığı dillərdə dastana döndü. Qəlbi Azərbaycana sevdalanan Ədaləti mənən yaşadan milyonların ürəyidir. Dövlət tərəfindən layiq olduğu "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın və Qubadlının azadlığına görə medalları isə bütün varlığı ilə bağlandığı Vətənə olan halal sevgidən nişanədir.

Ədalətdə həqiqətən Vətənə, torpağa məhəbbət kökdən gəlmə olub, məhz buna görə də erməni dığaların Qarabağda etdikləri ilə heç cür barışa bilməyib. 2010-cu ildə əsgərlik yaşına çatanda elə yağı düşməndən qisas almaq üçün hərbi xidmətə gedib. Cəbhə bölgəsində Vətəni canından üstün tutan Ədalət yoldaşlarına



vətənpərvərlik, sədaqət, cəsarət, qəhrəmanlıq nümunəsi olub. Yaxşı xidmətinə görə onunla həmişə öyünüblər. Fiziki gücü, bacarığı da bir qayda olaraq qatıldığı təlimlərdə ona uğur qazandırıb.

Qorxmazlığı, igidliyi ox olub qana susamış cəlladların gözünə sancılıb. Beləcə o, el-obanın başını uca edən yararlı övlad tək həqiqi hərbi xidmətini başa vurub. Amma düşməndən qisas alacağı günü hər an gözləyib...

Ədalətin nəcibliyi, halallığı, doğma torpağa məhəbbəti ona yaşadığı el-obada böyük hörmət gətirib. Gördüyü işlərlə cəmiyyətə yalnız fayda verib. Necə deyərlər, başqasına işıq olmaqla özünə xoşbəxtlik çələngi hörməklə yaşayıb. Bir müddət sonra, yeni 2020-ci il sentyabrın 27-də Ədalətin gözlədiyi gün gəlib. Vətənin harayına qələbəyə inamla qoşulub. Sentyabrın 29-da könüllü olaraq müharibəyə yollanıb. Ön cəbhədə düşmənə qarşı döyüşə girib. Dığaların kabusuna çevrilən Ədalət ağır müharibə meydanında kişi kimi vuruşub, yağı gülləsini vecinə almayıb. İki dəfə yüngül yaralansa da, qeyrəti döyüşmək üçün ona güc verib. Amalı Qarabağın hər qarışını almaq olub. Çoxlu sayda canlı qüvvəsini, texnikasını məhv etməklə düşmənin qara niyyətini məkrli ürəyində qoya bilib. Təəssüf ki, 8 noyabr 2020-ci il tarixində Qubadlıda yaralı yoldaşını çıxararkən ağır yaralanıb. 4 dəfə əməliyyat keçirməsinə baxmayaraq, 21 dekabrda şəhadətə qovuşub.

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**